**AZƏRBAYCAN RESPUBLİKASININ**

**SƏHİYYƏ NAZİRLİYİ**

Bakı AZ 1022, M.Mirqasımov küç.,1 Tel.: (994 12) 598 50 94, Faks: (994 12) 493 06 95

http:// www.health.gov.az elektron poçtu: office@health.gov.az

11.03.2011 № 29

№ zə

# ƏMR

**"Respublikada İİV diaqnostikasının təkmilləşdirilməsi barədə"**

Respublikada insan immunçatışmazlığı virusunun laborator diaqnostikası işinin gücləndirilməsi, laborator xidmətinin güc və ehtiyatlarının mərkəzləşdirilməsi, bu xidmətin idarə edilməsində səmərəliliyin təmin edilməsi məqsədilə

## ƏMR EDİRƏM:

1. Mingəçevir və Şirvan şəhər mərkəzi xəstəxanalarının İİV diaqnostika laboratoriyaları, Salyan, Yevlax, Şamaxı və Quba rayon mərkəzi xəstəxanalarının İİV diaqnostika laboratoriyaları, Sumqayıt və Gəncə şəhər, Lənkəran rayon gigiyena və epidemiologiya mərkəzlərinin İİV diaqnostika laboratoriyaları və Mərkəzi Qan Bankının Şəki bölməsinin laboratoriyası Respublika QİÇS-lə Mübarizə Mərkəzinin strukturuna daxil edilsin və müvafiq olaraq Respublika QİÇS-lə Mübarizə Mərkəzinin Mingəçevir, Şirvan, Salyan, Yevlax, Şamaxı, Quba, Sumqayıt, Gəncə, Lənkəran və Şəki regional laboratoriyaları adlandırılsın.

2. Bu əmrin 1-ci bəndində adı çəkilən tibb müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, əmrin 1-ci bəndi ilə aparılan struktur dəyişikliklərinə uyğun olaraq müəssisələrin ştat cədvəlində müəyyən edilmiş qaydada müvafiq dəyişikliklər edilsin.

3. Respublikanın tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, İİV-yə müayinələrin aparılması bu əmrin əlavəsinə uyğun olaraq həyata keçirilsin.

4. Respublika QİÇS-lə Mübarizə Mərkəzinə tapşırılsın ki, mərkəzin strukturunda edilən dəyişikliklərlə əlaqədar müvafiq tədbirlər həyata keçirilsin.

5. Maliyyə iqtisadiyyat şöbəsinə tapşırılsın:

5.1. struktur dəyişiklikləri aparılan müəssisələrin plan-maliyyə göstəricilərində müvafiq düzəlişlərin aparılması təmin edilsin;

5.2. bu əmrdən irəli gələn digər məsələlər həll edilsin.

6. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 13.04.1998-ci il tarixli 61 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin.

7. Əmrin icrasına nəzarət Nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
11.03.2011-ci il tarixli
29 nömrəli əmrinə əlavə

## İİV laboratoriyalarının ərazi üzrə təhkim olunma

## CƏDVƏLİ

| Sıra №-si | Müəssisələrin adı | Təhkim olunduğu ərazi |
|---|---|---|
| 1. | Respublika QİÇS-lə Mübarizə Mərkəzi | Bakı şəhərinin Qaradağ, Binəqədi, Yasamal, Səbail, Nəsimi rayonları |
| 2. | Respublika Gigiyena və Epidemiologiya Mərkəzi | Bakı şəhərinin Nizami, Xətai, Nərimanov, Suraxanı, Sabunçu, Xəzər rayonları |
| 3. | Sumqayıt regional laboratoriyası | Sumqayıt şəhəri, Xızı və Abşeron rayonları |
| 4. | Gəncə regional laboratoriyası | Gəncə, Naftalan şəhərləri, Şəmkir, Qazax, Ağstafa, Tovuz, Daşkəsən, Gədəbəy, Göygöl, Samux və Goranboy rayonları |
| 5. | Şəki regional laboratoriyası | Şəki, Zaqatala, Qax, Balakən, Qəbələ, İsmayıllı, Oğuz rayonları |
| 6. | Mingəçevir regional laboratoriyası | Mingəçevir şəhəri, Göyçay, Ağdaş, Ucar, Zərdab rayonları |
| 7. | Yevlax regional laboratoriyası | Yevlax, Bərdə, Tərtər, Ağcabədi, Beyləqan, Füzuli, Ağdam və Laçın rayonları |
| 8. | Quba regional laboratoriyası | Quba, Qusar, Siyəzən, Şabran, Xaçmaz rayonları |
| 9. | Şirvan regional laboratoriyası | Şirvan şəhəri, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, İmişli rayonları |
| 10. | Lənkəran regional laboratoriyası | Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad, Yardımlı rayonları |
| 11. | Salyan regional laboratoriyası | Salyan, Biləsuvar, Neftçala və Cəbrayıl rayonları |
| 12. | Şamaxı regional laboratoriyası | Şamaxı, Ağsu və Qobustan rayonları |